**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ PHŞ**
**UNEC**

# ELMİ ŞURA

**10 OKTYABR 2023-cü il**

# QƏRAR EŞ № 190

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 50 üzvündən 47 üzvü

## E Ş İ D İ L D İ:

***UNEC rektoru prof. Ədalət Muradov***

*Qaydalar haqqında*

## Q Ə R A R A A L I N D I:

UNEC əməkdaşlarının ***""Scopus" bazasındakı istinadlarına görə mükafatlandırılması haqqında" Qaydalar*** təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**“TƏSDİQ EDİRƏM”**
**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoru, professor**

**_________________ Ə.C.Muradov**

# UNEC ƏMƏKDAŞLARININ “SCOPUS” BAZASINDAKI İSTİNADLARINA GÖRƏ MÜKAFATLANDIRILMASI HAQQINDA

## Q A Y D A L A R

*UNEC Elmi Şurasının __10__ __oktyabr__ 2023-cü il*

*tarixli __190__ saylı qərarı ilə təsdiq edilmişdir.*

**Maddə 1. Ümumi müddəalar**

Bu Qaydaların məqsədi UNEC əməkdaşları arasında beynəlxalq standartlara uyğun elmi-tədqiqat işlərinin həyata keçirilməsini daha da stimullaşdırmaqdır.

Qaydalar "Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi" və UNEC Elmi Şurasının 13 sentyabr 2023-cü il tarixli 189 saylı qərarı əsasında hazırlanmışdır.

**Maddə 2. Qaydaların tətbiq dairəsi**

Bu Qaydalar "Scopus" bazasında müvafiq qaydada profili olan, profilində əsas işyeri kimi UNEC-i göstərən və əsas işyeri UNEC olan bütün UNEC əməkdaşlarına şamil olunur.

**Maddə 3. Mükafatlandırma forması**

Hər tədris ilində "Scopus" bazasında son 5 ildə istinad sayına (özünəistinadlar istisna olmaqla) görə ilk 3 yeri tutan UNEC əməkdaşları aşağıdakı qaydada birdəfəlik pul mükafatı ilə mükafatlandırılır:

I yer – 15 000 AZN
II yer – 10 000 AZN
III yer – 5000 AZN

**Maddə 4. Mükafatın verilməsinin qayda və prosedurları**

Hər tədris ilinin sonunda "Scopus" bazasında son 5 ildə istinad sayına (özünüistinadlar istisna olmaqla) görə ilk 3 yeri tutan UNEC əməkdaşlarının siyahısı UNEC Elimmetrika Şöbəsi tərəfindən müəyyən edilir və müvafiq prorektorun təqdimatı əsasında UNEC Rektoruna təqdim edilir. UNEC Rektorunun müvafiq əmri ilə qeyd edilən siyahıda göstərilən əməkdaşlar müvafiq qaydada mükafatlandırılır.

"Scopus" bazasında son 5 ildə istinad sayına (özünüistinadlar istisna olmaqla) görə ilk 3 yer müəyyən edilən zaman namizədlərin son 5 ildə istinad sayının eyni olduğu halı ortaya çıxarsa, o zaman əlavə üstünlük göstəricisi kimi onların Hirş indeksinə baxılır. Ümumi Hirş indeksi daha yüksək olan namizəd sıralamada önə çəkilir.

Hər tədris ilinin sonuncu Elmi Şura iclasında mükafatlandırılan əməkdaşların adları elan edilir və onlara UNEC adından müvafiq sertifikatlar təqdim edilir.

**Maddə 5. Yekun müddəalar**

Qaydalar UNEC Elmi Şurasının müvafiq qərarı ilə təsdiq edildikdən sonra qüvvəyə minir.

Qaydalara dəyişiklik və əlavələr UNEC Elmi Şurasının müvafiq qərarı ilə həyata keçirilir.